**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**07.02.2025-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol №5**

## *İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:*

I.2024-2025-ci tədris ilində qış imtahan sessiyasının nəticələrinin müzakirəsi və tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılması işində fakültə kollektivinin vəzifələri barədə İSF-nin dekan müavini N.Məmmədovanın təqdim etdiyi hesabat müsbət hesab edilsin.

II. Fizioterapiya və tibbi reabilitasiya kafedrasının illik fəaliyyəti barədə kafedra müdiri P.S. Mehdiyevin təqdim etdiyi hesabat müsbət hesab edilsin.

III. Qidalanma və tibbi ekologiya kafedrasının yeni elmi-tədqiqat işinin mövzusu,məqsədi, vəzifələri, gözlənilən nəticələri və planı təsdiq edilsin.

IV. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Kafedraların yeni elmi-tədqiqat işinin mövzusu, məqsədi, vəzifələri, gözlənilən nəticələri və planı kafedrada, Problem komissiyasında müzakirə olunaraq Elmi Şuraya təqdim olunsun.

2. 15 mart 2025-cü il tarixinə qədər aralıq qiymətləndirmənin testləri İmtahan Mərkəzinə təqdim olunsun ;

3. İSF-də təhsil alan IV kurs tələbələrinin “Tibb bacısı işi”, “Fizioterapiya və tibbi reabilitasiya” və V kurs tələbələrinin “İctimai səhiyyə” ixtisasları üzrə Dövlət Attestasiyası olmadığına görə onlarda peşə təcrübəsinin yekun imtahanı yaz semestrində ümumilikdə 100 bal olmaqla qiymətləndirilsin: 10 bal – davamiyyət, formativ aralıq qiymət – 40 bal və summativ - 50 bal.

V. Elmi Şuranın qərarları kafedra iclaslarında 3 iş günü müddətində müzakirə olunsun və protokol dekanlığa təqdim olunsun.

VI. Dekanlığa tapşırılsın ki, Elmi Şurada verilən qərarların icrasına nəzarət etsin.

Sədr: dos. Qalina Qəniyeva

.

Elmi katib: dos. Gülnarə İbrahimova